**UOT: 327**
https://doi.org/10.59849/2409-4838.2026.2.109

# ERMƏNİ TƏŞKİLATLARININ ERMƏNİSTANIN XARİCİ SİYASƏTİNƏ TƏSİRLƏRİ

**Badam Sahib qızı Məmmədova**
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı, Azərbaycan
badam.mamedova.97@mail.ru

*Tədqiqat işi 2018-ci ildən sonra Ermənistanın xarici siyasətində baş verən dəyişiklikləri və erməni təşkilatlarının Ermənistanın xarici siyasətinə təsirlərini araşdırmaq üçün hazırlanıb. Bu təşkilatlar Ermənistanın digər ölkələr ilə əlaqələr qurmasında mühüm rol oynayır. Xüsusən də erməni diasporu qlobal səviyyədə erməni iddialarını yaşatmaq üçün öz təsirini müxtəlif platformalarda hiss etdirir. Bu kontekstdə tədqiqat işində bu təşkilatların Ermənistanın qonşu dövlətlərlə münasibətlərindən tutmuş beynəlxalq qurumlar qarşısındakı münasibətinə qədər bir çox sahələrdə hansı təsirlərə malik olması araşdırılmışdır.*

*Bu araşdırmanın əsas məqsədi erməni təşkilatlarının ideoloji strukturlarını, Ermənistanın xarici siyasət qərarlarının qəbulu proseslərinə necə nüfuz etdiyini və dünya siyasətindəki strateji mövqelərini daha yaxından araşdırmaqdır. Tədqiqat işi Ermənistanın beynəlxalq aləmdə fəaliyyət kursunu formalaşdıran amillərin başa düşülməsinə töhfə verəcək.*

***Açar sözlər**: Ermənistan, xarici siyasət, erməni təşkilatları, diaspora, lobbiçilik*

## GİRİŞ

XX əsrin əvvəllərindən etibarən erməni siyasi təşkilatlarının və diaspor şəbəkələrinin fəaliyyətləri geniş miqyasa çatmış, bu qurumlar yalnız Ermənistanın deyil, həm də qlobal erməni icmasının maraqlarını beynəlxalq səviyyədə təmsil etmə iddiası ilə çıxış etmişlər. Bu kontekstdə daşnak (ARFD), Hınçak və Ramkavar kimi təşkilatlar siyasi mobilizasiya, informasiya məkanının idarə olunması və transmilli şəbəkələrin istifadəsi vasitəsilə Qərb ictimai rəyinə təsir göstərməyə çalışmış, bununla da Ermənistanın xarici siyasətinə birbaşa və ya dolayı yolla töhfə vermişlər. Sözügedən təşkilatların fəaliyyəti tarixi köklərə malik olsa da, onların təsiri yalnız keçmişlə məhdudlaşmır, bu aktorlar müasir Ermənistan dövlətinin beynəlxalq münasibətlər sistemindəki mövqeyini formalaşdıran əsas qeyri-dövlət resurslarından birinə çevrilmişdir. Xüsusilə 1915-ci il hadisələri ilə bağlı iddiaların beynəlxalq gündəmdə saxlanılması, qondarma "soyqırım" iddialarının legitimləşdirilməsi və bu məsələnin hüquqi-siyasi platformalara daşıması təşkilatların strateji fəaliyyət istiqamətlərindən biri olmuşdur. Bu proses Ermənistanın beynəlxalq siyasətində həm simvolik kapital, həm də diplomatik təzyiq aləti kimi istifadə edilməkdədir.

Erməni təşkilatlarının lobbiçilik fəaliyyəti, beynəlxalq media kampaniyaları, akademik diskursların ideoloji şəkildə yönləndirilməsi və hüquqi vasitələrin səfərbər edilməsi kimi metodlardan istifadəsi onlara xarici siyasət məqsədlərinin həyata keçirilməsində əhəmiyyətli imkanlar yaratmışdır. Diasporun institusionallaşmış strukturları bir çox hallarda Ermənistanın rəsmi dövlət siyasətini tamamlayan, bəzi hallarda isə onu formalaşdıran faktor rolunu oynamışdır. Bunun nəticəsində Ermənistanın diplomatik tədbirləri təkcə rəsmi dövlət aktorları vasitəsilə deyil, qeyri-dövlət subyektlərinin koordinasiyalı fəaliyyəti ilə həyata keçirilmişdir.

Bu baxımdan erməni təşkilatlarının xarici siyasətə təsiri sırf etnik-milli təbliğat çərçivəsindən kənara çıxaraq, qlobal aktorluq, transmilli səfərbərlik, informasiya təhlükəsizliyi və diaspora diplomatiyası kimi müasir siyasi anlayışlarla da izah oluna bilər.

## ƏSAS HİSSƏ

**2018-ci ildən sonra Ermənistanın xarici siyasətində dəyişikliklər**

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Ermənistanın xarici siyasətində bir çox dəyişikliklər nəzərə çarpmaqdadır. 2018-ci ilin mayında Ermənistanda korrupsiyaya uğramış, terrorçu S.Sarkisyan rejiminə qarşı ümümxalq narazılıqları zəminində xarici güclər tərəfindən təşkil və idarə edilən ixtişaşlar zamanı yenidən anti-rus təbliğatın başlanması, Qərbə tərəf üz çevirmək lüzumu barədə hay-küyə rəvac verilməsi dünya ictimayətinin nəzərindən qaçmamışdır.

Bu gün Rusiya mediasındakı şərhlərə diqqət yetirsək, Nikol Paşinyanın ABŞ-ın təsiri altındakı adamları Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi və Təhlükəsizlik Şurasının sədri kimi strateji qurumlarda vəzifələrə yerləşdirməsi Moskvanında diqqətindən qaçmamışdır. Birinci mərhələdə Ermənistandakı hadisələrlə Ukraynadakı hadisələr arasında paralellər var. Rusiya etirazlar yolu ilə hakimiyyəti ələ keçirən Paşinyanın əslində ABŞ-ın bir layihəsi olduğunu açıq şəkildə bəyan edir. Şübhəsiz ki, Moskva Paşinyan komandasında Soros Fondu ilə əlaqəli şəxslərin sayının çox olmasından xəbərdardır. Məsələn, Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryan vaxtı ilə Soros fondu tərəfindən maliyyələşdirilən Transparency International təşkilatının koordinatoru vəzifəsini icra edib. Təhsil və Elm naziri kimi fəalliyət görsətmiş Araik Arutunyan əvvəllər Helsinki Vətəndaş Assambleyasında və Transparency International təşkilatlarında çalışmışdır. Ermənistanın Dövlət Nəzarət Naziri təyin olunan David Sanasaryan indiyə qədər anti-rus münasibəti ilə seçilib və Rusiyanın İrəvandakı səfirliyi qarşısında dəfələrlə etiraz aksiyalarında iştirak edərək, ölkədəki Rusiya hərbi bazasının ləğv edilməsini tələb edib. O, əvvəllər Qərbyönümlü partiya kimi tanınan İRS  müxalifət partiyasında təmsil olunurdu - bu partiyaya isə ABŞ-da anadan olan Raffi Hovanisyan başçılıq edir [1, s. 318]. Yeri gəlmişkən, Paşinyan hakimiyyətə gəldikdən sonra Hovanisyan mən  "Partiyanın bayrağını kənara atdım, bizə birlik lazımdır" dedi və o, yeni iqtidarı dəstəklədi. 2018-ci ildən 2021-ci ilə qədər müdafiə nazirliyi kimi strateji bir qurumun etibar edildiyi David Tonoyan 1990-cı illərin sonlarından Ermənistanın NATO-dakı nümayəndəsi idi. Rusiyanın "Moskovskiy Komsomolets" qəzetinin yazdığına görə, bəzi rus mənbələri Tonoyanın  "2005-ci ildən bəri NATO tərəfindən idarə edildiyini və ABŞ Hərbi Attaşesi, polkovnik Erik Larsenin gizli şəkildə dəstəklədiyini" söyləyirlər [20].

Diaspor nazirinin müavini təyin edilən Babken Ter-Qriqoryan Parisdə anadan olmuş və ABŞ-da təhsil almışdır. O, Ermənistandakı Soros Fondunun proqram koordinatoru idi və yuxarıda adı çəkilən Transparency International-da işləmişdir. Ən əsası, erməni icması Ter-Qriqoryanı Rusiya Prezidenti Putinə təhqir dolu müraciətindən sonra tanımışdır. Beləliklə, Ermənistanda hakimiyyətə gələn Paşinyan və onun komandasının üzvlərinin keçmişlərinə və siyasi görüşlərinə baxdıqda postsovet coğrafiyasında hazırlanan və maliyyələşdirilən yeni bir layihənin şahidi oluruq [5].

Paşinyanın siyasətçi və rəsmi dövlət adamı olaraq Rusiyaya yönəlik siyasi görüşlərini dövrlərə ayıraraq dəyərləndirmək mümkündür. Paşinyan 2012-2018-ci ilərdə millət vəkili olarkən Rusiyaya qarşı radikal çıxışları ilə yadda qalmasa da, ümumən Qərb yönümlü olmuşdur. Serj Sarkisyanın 2018-ci ilin aprel ayında baş nazir təyin edilməsindən sonra xalq hərakatına başçılıq edən Paşinyan, Sarkisyanın istefasından sonra mayın 8-də baş nazir seçilmişdir. Bu tarix və parlament seçkilərinin keçirildiyi 9 dekabr tarixi arasındakı dövrdə Rusiyaya yönəlik təmkinli davranmışdır. Lideri olduğu Vətəndaş Müqaviləsi Partiyası parlament seçkilərində 70, 43 % səs toplayaraq gücünü daha da artırdıqdan və yenidən baş bazir təyin olunduqdan sonra iqtisadi və siyasi baxımdan Rusiya ilə məsafəli davranmağa çalışmışdır. Paşinyanın baş nazir seçilməsindən sonra Ermənistan ilə Rusiya arasında yaşanan ilk problem birbaşa iki ölkə arasında deyil, bu ölkələrin üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində meydana çıxmışdır. Belə ki, Paşinyan hökuməti 2008-ci ildə keçirilən prezident seçkilərinin nəticələrinə etiraz edənlərə qarşı hərbi gücdən istifadə edilməsi zamanı öldürülən 15 nəfərin məsuliyyətini sabiq prezident Robert Köçəryana və o zaman ordu qərərgah rəisi vəzifəsində olan Yuri Xaçaturova yükləmiş, Xaçaturovu KTMT Baş Katibi vəzifəsindən geri çağıraraq məsuliyyətə cəlb etmək istəmişdir. Paşinyan 2018-ci ilin sentyabr ayında Rusiyaya rəsmi sə-

fəri zamanı Prezident Vladimir Putin ilə görüşərkən hər iki dövləti bir-birilərinin daxili işlərinə qarışmamağa dəvət etmişdi.

Daha sonra Ermənistan hökuməti faşizm üzərindəki qələbə gününü (9 may) Avropada qeyd edildiyi kimi 8 may olaraq dəyişdirmiş və bu günü əvvəllər Sovet İttifaqının faşizm üzərində qələbəsi kimi deyil, Avropada olduğu kimi "kədər və barışıq günü" kimi qəbul etmişdir. Bu məqamlar iki ölkə arasındakı münasibətləri gərginləşdirmişdir. İki ölkə arasında gərginliyin yaşanmasında bir amil də hər ilin sonunda müzakirə olunan Rusiya təbii qazının hansı qiymətlə Ermənistana satılması məsələsidir. Rusiya adətən Ermənistanın siyasi mövqeyinə görə təbii qazın qiymətini müəyyən edir. Hər nə qədər Rusiya təbii qazı Ermənistana dünya bazarından daha aşağı qiymətə satılsa da, hər il qiymətlərin cüzi şəkildə artması belə Ermənistan iqtisadiyyatı üçün ağır yükdür. Yuxarıda qeyd edilən iki ölkə arasındakı siyasi və iqtisadi məsələlər Ermənistanın Rusiyaya yönəlik manevra sahəsinin nə qədər məhdud olduğunu bariz bir şəkildə ortaya qoyur. Eyni zamanda beynəlxalq aləmdə və təşkilatlarda da Ermənistanın Rusiyaya qarşı siyasəti məhduddur.

Son dövrə qədər Rusiyaya qarşı fikirlərini davam etdirən Paşinyan Rusiyaya etibar edilməməsi fikrini müdafiə edirdi. Lakin Paşinyanın fikirlərində sürətli bir dəyişiklik oldu. Rusiyanın Ermənistanın dostu olduğunu deyən Paşinyan, bu fikir dəyişikliyini təkrarlamaq üçün Gümrü şəhərindən Rusiyanın düşməni olmadıqlarını söylədi. "Ermənistanın Türkiyə və Azərbaycan ilə olan sərhədlərində böyük təhlükəsizlik problemi olduğu" qənaətinə gələn Paşinyan, Ermənistan ordusunun bu barədə qeyri-kafi olmasından ötrü ölkədəki Rus hərbi bazasının özləri üçün problem olmayacağı fikrindədir. Digər tərəfdən, Paşinyan rus silahlarının Azərbaycana satılmasını problem olaraq görür. 2019-cu il Ermənistanın  Avrasiya İqtisadi Birliyini tərk etməsini xahiş edən Paşinyan, Ermənistana gələn Rusiya millət vəkilləri ilə görüşdən sonra Ermənistanın həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, həm də Avrasiya İqtisadi Birliyinə üzv olaraq qalacağını vurğulamışdı.  Haqqında "ABŞ-ın onu dəstəklədiyi" ilə bağlı iddialar olsa da, Paşinyan həm Rusiyaya, həm də Qərbə siqnal verməyə çalışaraq tarazlıq siyasəti yeritməyə çalışır. Paşinyan çıxışlarında Ermənistanın Avropa İttifaqı (AB) və ABŞ ilə münasibətlərinə önəm verdiyini söyləmişdir. Qonşu ölkələrdən bəhs edərkən Türkiyə və Azərbaycanı hesaba almayan Paşinyan, İran və Gürcüstan ilə əlaqələri "strateji" əlaqələr kimi xarakterizə edir [3].

"Məxməri inqilabı"ndan sonra Rusiya ilə münasibətlərində gərgin bir dövr yaşayan N.Paşinyan Suriyaya əsgərlər və mülki şəxslər daxil olmaqla humanitar missiya göndərmək qərarını həyata keçirdi. Bəzi erməni analitiklərinin fikrincə, qərar Ermənistanın xarici siyasətində qumar oynadığını göstərir. Onlar yazırdılar ki, Ermənistan rəhbərliyi Rusiya ilə əlaqələrin Suriyaya qoşun göndərməklə yaxşılaşacağına ümid edir.  Ancaq aydındır ki, KTMT üzvü olaraq Paşinyan rəhbərliyi bir tərəfdən Rusiya ilə münasibətlərini yaxşılaşdırmağa çalışsada bir yandanda NATO ilə yaxşı münasibətlər qurmaq istəyir.

Bu baxımdan, 2020-ci ilə qədər ənənəvi olaraq Ermənistanın xarici siyasətində yer alan Rusiyanı Qərblə balanslaşdırma anlayışının saxlanıldığını söyləmək olar. Paşinyan 2018-ci ilin iyulunda keçirilən NATO sammitinə qatılaraq Aİ və NATO-nu Ermənistanın xarici siyasət məsələlərinə cəlb etmək niyyətini nümayiş etdirdi. Xatırladaq ki, Paşinyan bu zirvə görüşündən və sonrasında "Euronews" saytına açıqlamasında NATO və Aİ-dan Qarabağ probleminin həlli üçün dəstək gözlədiyini ifadə etmişdir. Lakin NATO Sammitinin yekun sənədindəki Cənubi Qafqaz ölkələrinin ərazi bütövlüyü haqqındakı qeyd Paşinyanın istədiklərinin əksinə idi [5].

Bütün bunlardan rusiyalı ekspertlər belə bir nəticə çıxarırdılar: N.Paşinyan sərt antirusiya siyasəti aparır. Məsələn, Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markovun fikrincə, N.Paşinyan Rusiya ilə bağlı dediklərində səmimi deyil. O, dostluqdan alovlu danışır, lakin rusiyayönümlü siyasətçiləri təqib edir. "KTMT-nin rəsmi şəxsinin təqib edilməsi Rusiya rəhbərliyi ilə münasibətlərin pis olmasının təzahürüdür". Mütəxəssis sözlərinə davam edərək vurğulamışdı ki, N.Paşinyan Rusiyaya münasibətində səmimi olsaydı, geniş müzakirəyə çıxarmadan Moskva ilə Y.Xaçaturov məsələsindən danışardı. Ancaq onun seçdiyi yol göstərir ki, "Ermənistanda antirusiya mövqeyi

tutsada siyasətçi hakimiyyətə gəlib”. Sergey Markov fikirlərinə yekun vuraraq daha sonra deyibdir: “Paşinyanın siyasəti kədərli faktdır. Biz münasibətlərə yenidən baxmalıyıq. Yaxşı ki, Rusiyanın Ermənistanda həyati əhəmiyyətli maraqları yoxdur. Hətta Paşinyan Amerika qoşunlarını Ermənistana dəvət etsə belə, bunun Rusiyanın maraqlarına həddən artıq güclü zərbə olmayacağına əminəm” [19].

**ABŞ və Kanadadakı erməni təşkilatlarının Ermənistanın xarici siyasətinə təsiri**

1980-ci illərdə erməni diasporu üçün “daxili diaspor” və “ xarici diaspor” olmaqla iki fərqli termin istifadə edilməyə başlanmışdır. Burada “xarici diaspor” deyərkən guya indiki Ermənistan (Qərbi Azərbaycan) ərazilərindən köç edərək daha çox Qərbə yayılan ermənilər, “daxili diaspor” anlayışı ilə isə keçmiş SSRİ ölkələrində məskunlaşan ermənilər nəzərdə tutulmuşdur. Diasporada yaşayan ermənilərin sayının, müasir Ermənistan sərhədlərindəki əhalidən daha çox olduğu aydın görünür. Belə ki, Ermənistandakı əhalinin sayının 2002-ci il siyahıyaalınmasında 3 milyona yaxın olduğu, 2017-ci ildə isə 3 milyondan da aşağı düşdüyü müşahidə edildi [16, s. 12]. Lakin diaspordakı say hər zaman bu saydan üstün olmuşdur.

Erməni təşkilatları xüsusilə ABŞ və Kanadada əhəmiyyətli yerə malikdirlər və erməni diasporunun siyasi, mədəni və sosial maraqlarını təmsil edirlər. Erməni icması 1915-ci ildə Osmanlı İmperiyasında baş verən hadisələrdən sonra böyük diaspora formalaşdırıb. Xüsusilə ABŞ və Kanada 20-ci əsrin əvvəllərindən etibarən erməni mühacirləri üçün mühüm təyinat ölkələri olmuşdur. Bu ölkələrdə erməni diasporu kök saldıqca müxtəlif qeyri-hökumət, siyasi və mədəni təşkilatlar yaradıldı. Bu təşkilatlar üç əsas məqsədə xidmət edir:

1. Qondarma “erməni soyqırımı”nın tanıdılması bu məsələ ilə bağlı beynəlxalq səviyyədə hüquqi və siyasi təşəbbüslərin göstərilməsi.
2. Erməni kimliyinin qorunması: Erməni dilini, mədəniyyətini və adət-ənənələrini qoruyub saxlamaq və yaşatmaq səyləri.
3. Ermənistana dəstək: İqtisadi, sosial və siyasi dəstək verməklə Ermənistanın güclənməsinə töhfə vermək.
4. Azərbaycana və Türkiyəyə qarşı diplomatik təzyiqlərin yaradılması.

ABŞ dünyanın ən böyük erməni diasporalarından birinə ev sahibliyi edir və burada bir neçə mühüm erməni təşkilatı fəaliyyət göstərir. Bunlardan biri “Amerika Erməni Milli Komitəsi”dir. ANCA ABŞ-dakı ən böyük və nüfuzlu erməni lobbi qruplarından biridir. Onun əsas məqsədi ABŞ-da və beynəlxalq səviyyədə erməni maraqlarını müdafiə etmək, qondarma erməni soyqırımının tanınmasını təmin etmək və Ermənistanın təhlükəsizliyini təşviq etməkdir. ANCA Vaşinqtonda güclü varlığa malikdir və ABŞ Konqresinin lobbiçiliyi ilə məşğul olur. 2024-cü ildən etibarən ANCA-nın əsas fəaliyyətlərinə ABŞ-ın qondarma soyqırımını rəsmən tanıması, Amerikanın Ermənistana yardımının artırılması, Azərbaycan və Türkiyəyə qarşı iqtisadi və hərbi sanksiyaların tətbiqi daxildir. Həmçinin bu təşkilat Vaşinqtonda yay təcrübə proqramları vasitəsilə erməni və amerikalı gəncləri siyasi proseslərə cəlb edir [8]. İkinci belə təşkilat isə “Amerika Erməni Assambleyası”dır. 1972-ci ildə yaradılmış bu təşkilat ABŞ-da və bütün dünyada erməni mədəniyyətini və irsini təbliğ etmək məqsədi daşıyır. O, qondarma “erməni soyqırımı”nın tanınması, Ermənistana iqtisadi və sosial yardımın göstərilməsi kimi məsələlərdə fəal lobbiçilik edir. Həmçinin ABŞ-da çoxlu yerli erməni mədəniyyət mərkəzləri, kilsələri və məktəbləri var. Bu təşkilatlar erməni kimliyini qoruyub saxlamaq və yeni nəsillərə ötürmək vəzifəsini öz üzərinə götürürlər.

Kanadada da əhəmiyyətli dərəcədə erməni icması yaşayır və orada da çoxlu aktiv erməni təşkilatları var. Bu təşkilatlardan biri Kanada Erməni Milli Komitəsi. ANCC Kanadadakı erməni icmasını təmsil edən ən böyük lobbi təşkilatıdır. O, qondarma“erməni soyqırımı” nın tanınması üzərində işləyir və Kanada hökuməti qarşısında Ermənistanın maraqlarını müdafiə edir. Növbəti təşkilat Kanada Erməni Cəmiyyətləri Federasiyasıdır. Bu federasiya Kanada boyu erməni assosiasiyalarını və mədəniyyət mərkəzlərini bir dam altında toplayır və erməni mədəniyyətinin təbliği, sosial xidmətlə-

rin göstərilməsi və Kanada cəmiyyətinə inteqrasiyanın təşviqi kimi məsələlərdə fəaliyyət göstərir. Bu təşkilatlarla yanaşı erməni mədəni və sosial qurumlarıda fəaliyyət göstərir. Həmçinin Kanadanın müxtəlif şəhərlərində, xüsusilə Monreal, Toronto və Vankuverdə çoxlu erməni mədəniyyət mərkəzləri, kilsələri və məktəbləri var. Bu qurumlar erməni dilinin və mədəniyyətinin yaşadılmasında mühüm rol oynayır. Bu təşkilatlar erməni diasporunun hüquq və mənafelərinin müdafiəsində çox aktiv fəaliyyət göstərirlər. Onlar ABŞ və Kanadada yerli və federal hökumətlərlə güclü əlaqələr qurublar. Məsələn, ANCA-nın ABŞ Konqresinə təsiri ABŞ-da qondarma "erməni soyqırımın"ın rəsmi tanınmasında mühüm rol oynayıb. Eynilə, Kanadada erməni təşkilatlarının fəal lobbiçilik fəaliyyəti sayəsində Kanada Parlamenti 2004-cü ildə qondarma erməni soyqırımını tanıyan qətnamə qəbul etdi.

ABŞ və Kanadadakı erməni təşkilatları 2024-cü ildə də müxtəlif fəaliyyətlərlə məşğul olmağa davam edir və bu fəaliyyətlər ümumilikdə erməni icmasının hüquqlarının müdafiəsi, qondarma "erməni soyqırımı" nın tanınmasının təmin edilməsi, Ermənistanın təhlükəsizliyinin dəstəklənməsi kimi məsələləri əhatə edir. Amerika Erməni Milli Komitəsi (ANCA) ABŞ-da müxtəlif tədbirlər təşkil edir və fəal lobbiçilik edir. Məsələn, ANCA-nın Leo Sarkisyan Təcrübə Proqramı və Maral Melkonyan Avetisyan Təqaüdü çərçivəsində gənc erməni amerikalılar Vaşinqtonda siyasi proseslərdə iştirak edir, Ermənistanın təhlükəsizliyini müdafiə edirlər. ANCA həmçinin ABŞ Konqresində güclü kampaniya aparır, erməni hərbi əsirlərin azad edilməsi üçün çalışır və Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsini müdafiə edir [6]. ANCA ABŞ-da yerli və regional səviyyələrdə onlayn və şəxsən brifinqlər keçirməklə Ermənistanın təhlükəsizliyi üçün icmaları səfərbər etməyə yönəlib. Bu görüşlərdə yerli vəkillər Ermənistanı müdafiə etmək üçün hüquqi strategiyalar və imkanlar haqqında məlumatlandırılıb və vəkillik fəaliyyətlərini artırmağa təşviq ediliblər. Eyni zamanda ABŞ-dakı erməni təşkilatları guya Azərbaycanda insan hüquqlarının pozulmasına diqqət çəkmək üçün beynəlxalq platformalarda fəal rol oynayırlar. Məsələn, Massaçusets ştatından olan ABŞ senatoru Edvard J. Marki erməni icma liderləri ilə dəyirmi masa görüşündə Azərbaycanın COP29 İqlim Sammitinə ev sahibliyi etməsindən narahatlığını bildirib [17]. Bu görüş Azərbaycanın beynəlxalq aləmdə ətraf mühit və insan hüquqlarının pozulması ilə bağlı tədbirlərini şübhə altına almaq və Azərbaycana qarşı sanksiyalar tətbiq etmək üçün təşkil edilmişdi.

Kanada Erməni Milli Komitəsi (ANCC) Azərbaycana qarşı Kanadada siyasi fəaliyyətləri dəstəkləyir və Ermənistanın təhlükəsizliyi üçün çalışır. ANCC Kanada hökumətini guya Azərbaycanda insan hüquqlarının pozulduğunu və buna qarşı tədbir görməyə və hərbi cinayətlər və insanlığa qarşı cinayətlər törətmiş şəxslərə qarşı sanksiyalar tətbiq etməyə çağırıb. Bundan əlavə, ANCC Kanadada əsassız "erməni soyqırımı" nın inkarının qadağan edilməsini və erməni mədəni irsinin qorunmasını müdafiə edir. ABŞ və Kanadadakı erməni təşkilatlarının fəaliyyəti Ermənistanın xarici siyasətinə müxtəlif formalarda təsir edir. Amerika Erməni Milli Komitəsi (ANCA) və Kanada Erməni Milli Komitəsi (ANCC) kimi təşkilatlar Ermənistanın xarici siyasəti ilə bağlı məsələlərdə lobbiçilik fəaliyyəti həyata keçirir. Bu fəaliyyətlər Ermənistanın Qərbdəki strateji müttəfiqləri ilə əlaqələrini gücləndirməyə kömək edir. Məsələn, ANCA-nın ABŞ Konqresində lobbiçilik səyləri ABŞ-ın Ermənistana yardımını artırmaq, Azərbaycan və Türkiyəyə qarşı sanksiyalar tətbiq etmək və Ermənistanın təhlükəsizlik ehtiyaclarını ödəmək məqsədi daşıyan mühüm diplomatik təşəbbüslərə səbəb olub [7]. Həmçinin bu təşkilatlar ermənilərə qarşı insan haqlarını pozmasına diqqət çəkməyə və bu məsələlərlə bağlı beynəlxalq hüquqi mexanizmləri işə salmağa çalışır. Bu təşəbbüslər Ermənistanın beynəlxalq platformalarda dəstəklənməsinə töhfə verir. Məsələn, ANCA ABŞ Konqresində Azərbaycana qarşı sanksiyaların tətbiqi və erməni hərbi əsirlərin azad edilməsinin tərəfdarıdır.

Bu təşkilatlar tərəfindən həyata keçirilən kampaniyalar qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanınmasına nail olmaq səylərinin mühüm tərkib hissəsidir. Ermənistanın xarici siyasətinin mühüm sütunu uydurulmuş 1915-ci il hadisələrinin dünya miqyasında soyqırım kimi tanıdılması və Türkiyənin bu məsələyə görə məsuliyyət daşımasıdır. ABŞ və Kanadadakı erməni təşkilatları bu məqsədlə öz hökumətlərini fəal şəkildə lobbiləşdirirlər. 2024-cü ildən etibarən bu təşkilat-

lar erməni soyqırımının tanınmasını müdafiə etmək üçün yeni qanunlar və qətnamələr qəbul etmək üçün işlərini davam etdirirlər.

Erməni təşkilatlarının həyata keçirdiyi lobbiçilik fəaliyyəti ABŞ və Kanada kimi ölkələrin Ermənistana iqtisadi və hərbi yardımlarını artırmasına da töhfə verir. Məsələn, ANCA ABŞ-da Ermənistana iqtisadi yardımı artırılması, Azərbaycana hərbi yardım göstərilməməsi üçün kampaniyalar aparır. Bu cür fəaliyyətlər Ermənistanın iqtisadi inkişafı və təhlükəsizliyinə mühüm strateji dəstək verir. Erməni təşkilatları erməni mədəni və sosial kimliyinin qorunub saxlanmasında və təbliğində də mühüm rol oynayır. Bu təşkilatlar diaspor icmalarının Ermənistanla əlaqələrini gücləndirir və beynəlxalq səviyyədə erməni mədəniyyətini təbliğ edir. Bu, Ermənistana öz yumşaq gücünü artırmağa və diaspor vasitəsilə qlobal səhnəyə təsir etməyə imkan verir.

ABŞ və Kanadadakı erməni təşkilatları Ermənistanın xarici siyasətinə mühüm töhfələr verir. Bu təşkilatlar Ermənistanın beynəlxalq aləmdə daha çox dəstək tapmasına, uydurulmuş hadisələri soyqrım tanıdılmasına, ABŞ və Kanadanın Azərbaycan və Türkiyəyə qarşı daha sərt siyasətə təsir edilməsinə kömək edir. Bu ölkələrdə erməni diasporunun güclü olması və siyasi təsiri Ermənistanın xarici siyasətinin formalaşmasında həlledici rol oynayır.

**Avropa ölkələrində erməni təşkilatlarının Ermənistan xarici siyasətinə təsiri.**

Sovet İttifaqının dağılmasından sonra Ermənistan müstəqilliyini elan edərkən xarici siyasətini formalaşdırmaq üçün müxtəlif daxili və xarici amillərin təsiri altına düşmüşdür. Bu amillərdən biri də Avropadakı erməni təşkilatlarıdır. Avropadakı erməni təşkilatlarının tarixi XX əsrin əvvəllərinə gedib çıxır. Avropada erməni icmaları xüsusilə dövrdən mədəni və siyasi məqsədlərlə müxtəlif təşkilatlar yaradıblar. Bu təşkilatlar arasında ən məşhurları Erməni Ümumi Milli Assosiasiyası (AGMD), Erməni Milli Komitəsi və Erməni Qızıl Xaç Cəmiyyəti kimi təşkilatlardır [13]. Bu təşkilatlar erməni mədəniyyətini yaşatmaq, qondarma "soyqırımı" təbliğ etmək və Ermənistana iqtisadi dəstək vermək məqsədi daşıyır. Təşkilatların strukturları ümumiyyətlə könüllü üzvlərdən ibarətdir və müxtəlif beynəlxalq platformalarda fəal rol oynayırlar [10].

Avropadakı erməni təşkilatları Ermənistanın beynəlxalq aləmdə tanınması üçün fəal lobbiçilik edir. Bu fəaliyyətlər ümumiyyətlə Avropa Parlamentində və müxtəlif beynəlxalq təşkilatlarda həyata keçirilir. Erməni təşkilatları bu cür fəaliyyətlərlə Ermənistanın xarici siyasətinə beynəlxalq dəstək verməyi hədəfləyir [15]. Ermənistanın xarici siyasətinin formalaşmasında Avropa Parlamentində erməni təşkilatlarının təsiri mühüm rol oynayır. Xüsusilə, bu təşkilatların təsiri qondarma "soyqırımı"n tanıdılması və Ermənistana beynəlxalq yardımın göstərilməsində müşahidə olunur. Erməni mədəni-maarif təşkilatları Ermənistanın beynəlxalq imicini gücləndirmək üçün müxtəlif tədbirlər təşkil edirlər. Bu fəaliyyətlər erməni mədəniyyətinin irsinin təbliğində və beynəlxalq münasibətlərdə müsbət imicinin yaradılmasında mühüm rol oynayır [14]. Fransa erməni təşkilatlarının Avropada ən nüfuzlu olduğu ölkələrdən biridir. Fransadakı erməni təşkilatları ölkədəki siyasi proseslərdə fəal rol oynayır və Ermənistan-Fransa münasibətlərinə ciddi təsir göstərir. Bu təsirlər iki ölkə arasında siyasi və iqtisadi əməkdaşlığı formalaşdırır [12]. Birinci Dünya Müharibəsi başa çatdıqdan sonra Fransada məskunlaşmağa başlayan ermənilər illər keçdikcə ciddi assimilyasiyadan qorxurdular. Assimilyasiyanın qarşısını almaq, erməni kimliyini qorumaq üçün dil və mədəniyyəti qorumaqdan daha çox Türkiyə və türk düşmənçiliyinə önəm verən diaspor bu məqsədlə 1915-ci il hadisələrindən istifadə etdi. Fransada 1970-ci illərdən etibarən 1915 hadisələri ilə bağlı iddiaları gündəmdə saxlamağa çalışan erməni təşkilatları, Fransa parlamentində qəbul edilən qanunla 1915-ci il hadisələrinin "qondarma soyqırım" kimi tanınmasında rol oynayıb. Bu qanunun qəbulu ilə Fransa siyasətində erməni lobbisi görünməyə başladı. Digər tərəfdən, qondarma "soyqırım"ın inkarının cinayət kimi tanınması və 1 il həbs və 45 min avro cərimə ilə cəzalandırılmasını nəzərdə tutan qanun parlamentdən keçib. Lakin reaksiyalardan sonra Fransa Konstitusiya Şurası qanunu ifadə azadlığına zidd hesab edərək ləğv edib [12].

Türkiyə və türklərə qarşı düşmənçiliyini davam etdirən erməni lobbisi 2020-ci ildə Qarabağda baş verən münaqişə zamanı yenidən hərəkətə keçdi. 27 sentyabr 2020-ci il tarixində Azərbaycan

Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə əsasən ona məxsus olan ərazilərin Ermənistanın işğalından azad edilməsi əməliyyatına başladı. Türkiyənin dəstəklədiyi və BMT-nin də təsdiq etdiyi Azərbaycan torpaqlarını geri almağa başlayanda erməni diasporu Fransa mediasında Türkiyə və Azərbaycana qarşı dezinformasiya fəaliyyəti ilə məşğul idi.

Qarabağda guya ermənilərin kütləvi şəkildə qətlə yetirildiyini, dinc əhalinin hədəfə alındığını iddia edən erməni təşkilatları oktyabrın 22-də TF1 kanalında yayımlanan Qarabağla bağlı qərəzsiz xəbəri kanalın saytından, sosial şəbəkələrdən və digər platformalardan sildirmişdilər. Bundan əlavə, ölkədəki erməni assosiasiyalarının çətir təşkilatı olan Fransadakı Erməni Təşkilatları Şurasının (CCAF) həmsədri Frank Murad Papazyan öz Twitter hesabında TF1 kanalını və xəbəri yayan jurnalist Liseron Boudulu hədəf almışdı. Fransa mətbuatında Azərbaycanın beynəlxalq qanunlara uyğun hüququnu göstərən bir sıra xəbərlər erməni təşkilatlarının təzyiqi ilə silindiyi halda, Fransanın AFP xəbər agentliyi və "Le Figaro" qəzeti də Azərbaycanın Parisdəki səfiri Rəhman Mustafayevin Qarabağla bağlı müsahibəsini dərc etməyi dayandırmışdı. Fransa administrasiyasının Şərqi Aralıq dənizi, Liviya və NATO-ya üzvlük kimi məsələlərdə Türkiyəyə qarşı mövqeyi diasporun bu təzyiqində təsirli olmuşdu [2].

Böyük Britaniyada da ermənilərin özlərinə xas təşkilat və qurumları mövcuddur. Fərqli başlıqlar və məqsədlər altında toplanan bu təşkilatlar ermənilərə mədəniyyət, təhsil, idman və sosial yardım sahələrində müxtəlif dəstək verməkdədir. Hüquqi statusuna gəlincə, bu təşkilatlar İngiltərə və Uelsdə qeydiyyatdan keçmişdir. Bu təşkilatların fəaliyyəti ilə bərabər ilin müxtəlif dövrlərində təşkil olunan tədbirlər Böyük Britaniyadakı erməni cəmiyyəti üçün danılmaz əhəmiyyətə malikdir. Bəzi Avropa, Amerika və Kanadalı erməni təşkilatlarının və siyasi partiyalarının Londonda da filialları var. Çünki paytaxt dünyanın ən vacib, bəlkə də ən böyük siyasi lobbiçilik mərkəzlərindən biridir. Bu təşkilatların bəziləri həqiqi adlarını və məqsədlərini gizlətmək üçün köməkçi təşkilatlar adı altında işləyirlər. Təşkilatların əksəriyyəti siyasi və ekstremistdir. Bu təşkilatlar erməni diasporunun sosial, iqtisadi və mədəni problemlərinə diqqət yetirməkdənsə, erməni məsələsinə və Türkiyə-Ermənistan münasibətlərinə diqqət yetirirlər. Eyni zamanda bu təşkilatların daha bir təsiri də diasporu siyasiləşdirməsidir. İngiltərədəki erməni təşkilatlarının bir qismini aşağıdakı kimi sadalaya bilərik:

- Erməni İcmasının Məktəbəqədər Qrupu;
- Ermənistana yardım, Torpaq və Mədəniyyət Təşkilatı;
- "Anait" Assosiasiyası;
- Erməni Milli Komitəsi;
- Erməni Göy Qurşağı Koalisiyası;
- Böyük Britaniyanın Erməni Dəstək Cəmiyyəti;
- Böyük Britaniya erməni İnqilab Federasiyası (Böyük Britaniyada radikal siyasi qrup);
- Erməni hüquqları qrupu;
- Barbara Melinski Fondu;
- Britaniya Erməni İcması;
- Kilsə şurası;
- Erməni Soyqırımını Tanıma Komitəsi;
- Hamazkayin;
- Hayashen Erməni Gənclər Klubu;
- Hayastan Ümumerməni Fondu (Mançester);
- K. Tahta Erməni İcması Bazar Məktəbi;
- Manukyan Xeyriyyə Fondu;
- Hindistanda erməni məktəbləri və kilsələrinin qorunması təşkilatı (London);
- Sosial Demokrat Hıncak Partiyası;
- Tekayan Mədəniyyət Assosiasiyası, (London) və s. [18].

Böyük Britaniyadakı ermənilərin təmsil olunmasında rol oynayan təşkilatlardan biri də "Böyük Britaniyanın Erməni İcması və Kilsəsi Şurası" təşkilatıdır. Bu təşkilat ermənilərin sosial inkişa-

fı, mənəvi, intellektual və təhsil ehtiyaclarını təmin etmək üçün çalışır. Dörd illik müddətə seçilən bir qrup tərəfindən idarə edilən bu təşkilat erməni cəmiyyətinin bütün üzvlərinə açıqdır. Erməni cəmiyyəti içərisində kökləri keçmişə dayanan digər qurum isə "Ermənilərə Dəstək"dir. Əsası XX əsrin əvvələrində Nyu-Yorkda yaradılan bu qurum Beynəlxalq Qırmızı Xaç Sazişi çərçivəsində qəbul edilmişdir. Lakin bu qurum, İlk Ermənistan Respublikasının dağılmasından sonra qanuni öhdəliklərini yerinə yetirməməsi ilə bağlı olaraq statusunun itirilməsinə səbəb oldu. 1946-ci ildə isə yenidən "erməni cəmiyyətinə dəstək" adı altına təşkilatlandı. Bu qurumun yaradılmasında əsas məqsəd Birinci və İkinci Dünya Müharibəsi zamanı köçkün düşmüş ermənilər üçün yeni sığınacaqlar yaratmaqdır. Bu qurum 1982-ci ildə London şöbəsini açdı. Başda Ermənistan olmaqla dünyanın müxtəlif yerlərində təhsil, yetimlərə dəstək, səhiyyə, sosial sahədə fəaliyyət göstərir [9].

Bu təşkilat və qurumlardan danışarkən siyasi təşkilatlara da xüsusilə diqqət yetirməliyik. Belə ki, onların içərisində "Erməni Milli Komitəsi" kiçik bir siyasi təşkilat olaraq yer almaqdadır. "Erməni Milli Komitəsi"nin 3 əsas hədəfi var. Birincisi, müstəqil, vahid və azad Ermənistan üçün ictimai şüurun gücləndirilməsidir. İkincisi, Böyük Britaniyadakı erməni cəmiyyətinə yönələn siyasətə yön vermək və son olaraq ictimai siyasətdə İngiltərədəki ermənilərin fikirlərini əks etdirmək. Qeyd etməliyik ki, həmçinin bu təşkilat 1915-ci ildə qondarma "erməni soyqırımı" və Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın Dağlıq Qarabağ regionu ilə bağlı İngiltərə parlamenti üçün müxtəlif sənədlər hazırlayır və beynəlxalq ictimai rəyə təsir göstərməyə çalışır.

Beləliklə, Avropadakı erməni təşkilatlarının Ermənistanın xarici siyasətində həlledici rol oynadığı görünür. Bu təşkilatlar lobbiçilik fəaliyyəti, iqtisadi dəstək və mədəni əlaqələr vasitəsilə Ermənistanın beynəlxalq əlaqələrinə əhəmiyyətli təsir göstərir. Ermənistanın xarici siyasət strategiyaları müəyyən edilərkən bu təşkilatların strateji məqsədləri və təsirləri nəzərə alınmalıdır

## YEKUN NƏTİCƏ

Xarici ölkələrdəki erməni təşkilatları, xüsusilə ABŞ, Fransa və Böyük Britaniya kimi ölkələrdə güclü fəaliyyət göstərən qruplar Ermənistanın xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərirlər. Bu təşkilatlar xüsusilə qondarma erməni "soyqırımı" nın tanıdılması, Türkiyə və Azərbaycanla münasibətlər, Qarabağ məsələsi kimi mövzularda Ermənistanın diplomatik gündəminə əhəmiyyətli dərəcədə təsir göstərirlər. Diaspor təşkilatları yerləşdikləri ölkələrdəki siyasi, iqtisadi və media gücündən istifadə edərək Ermənistanın təcavüzkar təbliğatını aparırlar. Xüsusilə ABŞ-dakı erməni lobbisi Ermənistanın lehinə siyasətin hazırlanmasında fəal rol oynayır. Bu təşkilatların verdiyi maliyyə və siyasi dəstək sayəsində Ermənistan beynəlxalq aləmdə əsassız mövqeyini daha güclü şəkildə çatdıra bilir.

Nəticədə erməni təşkilatlarının və diasporunun Ermənistanın xarici siyasətinə təsiri əhəmiyyətli və davamlıdır. Lakin bu təsir həm Ermənistanın milli maraqlarını dəstəkləyən, həm də xarici siyasətdə bəzən onun manevr imkanlarını daraldan bir xüsusiyyətə malikdir. Gələcəkdə Ermənistan hökumətinin diaspora ilə münasibətlərinin daha balanslı idarə olunması xüsusilə Türkiyə və Azərbaycanla münasibətlərdə daha davamlı həll yollarının tapılması üçün əsasdır.

## ƏDƏBİYYAT

1. Hacıyev Q.Ə. Ermənistan: daxili sosial-iqtisadi və siyasi şərait / Kəlbizadə.E.H, Aydın.E.B, Aynur.Ə.R [və b.] - Bakı: MTM İnnovation, - 2019. - 348 s.
2. Alaattin.D. Fransa'da Ermeni diasporası yüzlerce derneğiyle Türkiye karşıtı lobi yapıyor: [Elektronik kaynak] / Anadolu Ajansı – Aprel 23, 2021. URL: https://www.aa.com.tr/tr/dunya/fransada-ermeni-diasporasi-yuzlerce-dernegiyle-turkiye-karsiti-lobi-yapiyor/2217965
3. Elnur.İ. Ermenistan'da Paşinyan Dönemi ve Değişen Dengeler: [Elektronik kaynak] / Bilgesam - Mayıs 31, 2018. URL:http://www.bilgesam.org/incele/7810/-ermenistan-da-pasinyan-donemi-ve-degisen-dengeler/#.XcFstVUzaM8

4. Ermenistan'da iktidarı sarsan muhalif: Nikol Paşinyan: [Elektronik kaynak] / TRT Haber – Aprel 3, 2018. URL: https://www.trthaber.com/haber/dunya/ermenistanda-iktidari-sarsan-muhalif-nikol-pasinyan-363293.html
5. Tutku.D. Ermenistan dış politikasında yenilik nerde: [Elektronik kaynak] / Avrasiya İncelemeleri Merkezi - mart 23, 2019. URL: https://avim.org.tr/tr/Yorum/ERMENISTAN-DIS-POLITIKASINDA-YENILIK-NEREDE
6. Armenian National Committee of America: [Elektron resurs] / ANCA – 2020. URL: https://anca.org/
7. By Sevag. ANCC's Key Messages for April 24, 2024: [Elektron resurs] / Armenian National Committee of Canada (ANCC) - April 18, 2024. URL: https://anccanada.org/armeniangenocide2024/#:~:text=As%20we%20mark%20this%20anniversary,eradication%20of%20the%20Armenian%20people.
8. ANCA Summer Interns Advance Armenian American Policy Priorities in Nation's Capital: [Elektron resurs] / Armenian Weekly - July 10, 2024. URL: https://armenianweekly.com/2024/07/10/anca-summer-interns-advance-armenian-american-policy-priorities-in-nations-capital/
9. Our Mission & Vision - Armenian Relief Society: [Elektron resurs] / ARS - 1 Jun 2017. URL: https://ars1910.org/about-us/our-mission-and-vision/
10. Chorbajian, L. The Making of Modern Armenia / L.Chorbajian. - Transaction Publishers - 2011. - p. 386.
11. Dumanian, M. France's Engagement with the Armenian Diaspora: Political Implications / M.Dumanian – Springer- 2014. - p. 318.
12. Dumanian, M. France's Engagement with the Armenian Diaspora: Political Implications / M.Dumanian – Springer- 2014- pp.276.
13. Hovannisian, R.G. The Republic of Armenia: The First Year 1918-1919 / R.Hovannisian - University of California Press- 2004. - p. 547.
14. Kazanjian, H. Armenian Cultural Diplomacy and its Impacts / H.Kazanjian - Cambridge University Press- 2018- pp.320.
15. Kouyoumdjian, M. The Politics of Armenian Genocide Recognition in Europe/ M.Kouyoumdjian – Routledge – 2015. – p. 208.
16. Pattie, S. Armenians in Diaspora. İn: M. Kurkchiayan and E. Herzig, ed., The Armenians: Past And Present In The Making Of National Identity / S.Pattie. - Newyork: RutledgeCurzon, - 2005. - p. 126-146.
17. Senator Markey Hosts Roundtable with Armenian Community Organizations, Leaders:[Elektron resurs] / ED Markey September 03,2024 URL: https://www.markey.senate.gov/news/press-releases/-senator-markey-hosts-roundtable-with-armenian-community-organizations-leaders
18. The Armenian Tale: The Other Side of the Falsified genocide. Armenian diaspora in Britain and the Armenian questions: [Elektron resurs] / Tall Armenian Tale - URL: https://tallarmeniantale.com
19. Андрей, Р. Зачем Пашинян пошел на резко антироссийский шаг: [Ресурсы Электрона] / Июль 27,2018. URL: https://vz.ru/politics/2018/7/27/665268.html
20. Почему в команде умеренного Пашиняна оказалось столько русофобов: [Ресурсы Электрона] / май 29,2018 URL: https://www.mk.ru/politics/2018/05/29/pochemu-v-komande-umerennogo-pashinyana-okazalos-stolko-rusofobov.html29.05.2018

## THE IMPACT OF ARMENIAN ORGANIZATIONS ON ARMENIA'S FOREIGN POLICY

**B.S. Mammadova**

This research was prepared to examine the changes that have occurred in Armenia's foreign policy since 2018 and the influence of Armenian organizations on Armenia's foreign policy. These organizations play an important role in establishing Armenia's relations with other countries. In particular, the Armenian diaspora demonstrates its influence on various platforms in order to maintain Armenian claims at the global level. In this context, the research explores the extent to which these organizations influence various spheres, ranging from Armenia's relations with neighboring states to its interactions with international institutions.

The main purpose of this research is to closely analyze the ideological structures of Armenian organizations, how they penetrate Armenia's foreign policy decision-making processes, and their strategic positions in world politics. The study will contribute to understanding the factors that shape Armenia's course of action in the international arena.

**Keywords**: *Armenia, foreign policy, Armenian organizations, diaspora, lobbying*

## ВОЗДЕЙСТВИЕ АРМЯНСКИХ ОРГАНИЗАЦИЙ НА ВНЕШНЮЮ ПОЛИТИКУ АРМЕНИИ

**Б.С. Мамедова**

Данное исследование подготовлено для изучения изменений, произошедших во внешней политике Армении после 2018 года, а также влияния армянских организаций на внешнюю политику страны. Эти организации играют важную роль в установлении связей Армении с другими государствами. Особенно армянская диаспора проявляет свое влияние на различных платформах с целью поддержания армянских требований на глобальном уровне. В этом контексте в исследовании анализируется, какое влияние данные организации оказывают на различные сферы от отношений Армении с соседними государствами до ее взаимодействия с международными институтами.

Основная цель данного исследования более детально изучить идеологические структуры армянских организаций, их проникновение в процессы принятия внешнеполитических решений Армении, а также их стратегические позиции в мировой политике. Исследование внесет вклад в понимание факторов, формирующих курс действий Армении в международной среде.

**Ключевые слова:** *Армения, внешняя политика, армянские организации, диаспора, лоббизм*